Elektrik enerjisi sahəsi Azərbaycanın sosial problemlərinin həll olunmasında xüsusi rol oynayır.

Heydər Əliyev

Azərbaycan işıqları

“Azərenerji” ASC-nin orqanı | 27 FEVRAL 2016-cı il ŞƏNBƏ | № 4 (1130) | www.azerenerji.gov.az

“Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etmişdir”.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

RƏSMİ XRONİKA

12 fevral

- Almaniya Federativ Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində “Neftin qiymətinin aşağı düşməsi geosiyasi məsələləri üzrə enerji təhlükəsizliyi” mövzusunda “dəyirmi masa”da iştirak edib.
- Prezident İlham Əliyevin Münxendə Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Volfqanq Büxele ilə,“Goetzpartners” şirkətinin sahibi və icraçı direktoru Stefan Qötz ilə, ABŞ müdafiə katibinin kəşfiyyat üzrə müavini Marsel Lettre ilə və “Kaspersky Lab” şirkətinin sahibi və icraçı direktoru Yevgeni Kasperski ilə görüşü olub.

13 fevral

- Prezident İlham Əliyev Münxendə Almaniya Federativ Respublikasının xarici işlər naziri Frank-ValterŞtaynmayer ilə, Avropa İttifaqının Avropa qonşuluq siyasəti və genişlənmə məsələləri üzrə komissarı Yohannes Han ilə görüşüb.
- Prezident İlham Əliyev, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Münxen Təhlükəsizlik Konfransı çərçivəsində “İqlim və enerji təhlükəsizliyi. İstiləşmə hələ də davam edirmi?” mövzusunda keçirilən panel-müzakirədə iştirak ediblər.

16 fevral

- Prezident İlham Əliyev NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturarı qəbul edib.
- Prezident İlham Əliyev Tovuz rayonuna səfərə gedib. Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Tovuz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etib, önünə gül dəstəsi qoyub.
- Prezident İlham Əliyev Tovuz şəhərinə səfəri çərçivəsində Heydər Əliyev Parkında aparılan yenidənqurma işləri ilə tanış olub, yenidən qurulan Tovuz-Hunanlar-Qaraxanlı-Düz Cırdaxan avtomobil yolunun açılışında, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən Tovuz şəhər 7 saylı körpələr evi-uşaq bağçasının açılışında, Tovuzçay su anbarının açılışında və Qovlar şəhərindəki Gənclər Evinin açılışında iştirak edib.

17 fevral

- Prezident İlham Əliyev Gəncə şəhərinə səfərə gedib. Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.
- Prezident İlham Əliyev Gəncədə “İmamzadə” dini kompleksində aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə, Abbas Səhhət adına 1 nömrəli şəhər xəstəxanasında aparılan əsaslı təmirdən sonra yaradılan şəraitlə, “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin istehsal sahələri ilə, “Gəncə - 2016-cı il Avropa Gənclər paytaxtı” parkında yaradılan şəraitlə, Gənceçay çayı boyunca yaradılan park-bulvar kompleksi ilə, Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi ilə tanış olub.
- Prezident İlham Əliyev Gəncədə Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbin binasının açılışında, “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin balansında olan 240 yerlik körpələr evi-uşaq bağçasının əsaslı təmirdən sonra açılışında, 35/6 kV-lik “Nizami” yarımstansiyasının açılışında, Azərbaycan Dövlət Aqrar Universitetinin tələbə yataqxanasının açılışında, Gəncədə hərbi qulluqçular üçün inşa edilən şəhərciyin açılışında iştirak edib.
- Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana Ankara şəhərində törədilmiş terror aktı nəticəsində insanların həlak olması ilə əlaqədar həm öz adından, həm də Azərbaycan xalqı adından başsağlığı teleqramı göndərib.

18 fevral

- Prezident İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib.
- Prezident İlham Əliyev Portuqaliya Respublikasının Prezidenti Marselo Rebelo de Susaya yenidən Portuqaliya Respublikasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə təbrik teleqramı göndərib.
- Prezident İlham Əliyev Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisiyə Birləşmiş Millətlər Təşkilatının VI Baş katibi, görkəmli siyasi xadim Butros Butros-Qalinin vəfatı ilə əlaqədar başsağlığı teleqramı vurub.
- Prezident İlham Əliyev Birinci Türkoloji Qurultayın 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

19 fevral

- Prezident İlham Əliyev Fransa Senatının Yuxarı Reyn Departamentindən olan senatoru, Fransa-Qafqaz dostluq qrupunun üzvü, sabiq nazir Jan-Mari Bokelin başçılıq etdiyi nümayəndə heyətini, İndoneziya parlamenti Nümayəndələr Palatasının sədr müavini Fahri Hamzahın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Prezident İlham Əliyev əlli min nəfərə yaxın əhalinin yaşadığı 16 yaşayış məntəqəsini birləşdirən Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan “Azəryolservis” Açıq Səhmdar Cəmiyyətinə ilkin olaraq dörd milyon manat ayrılması barədə sərəncam verib.
- Prezident İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev Azərbaycanda yol-nəqliyyat infrastrukturunun inkişafında xidmətlərinə görə “Azəryolservis” Açıq Səhmdar Cəmiyyətinin bir qrup işçisinin “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında sərəncam verib.
- Prezident İlham Əliyev Azərbaycanda yol-nəqliyyat infrastrukturunun inkişafında xidmətlərinə görə bir qrup şəxsə “Əməkdar mühəndis” fəxri adının verilməsi barədə sərəncam imzalayıb.

22 fevral

- Prezident İlham Əliyev İran İslam Respublikasının Radio-Televiziya Şirkətinə müsahibə verib.

23 fevral

- Prezident İlham Əliyev İran İslam Respublikasına rəsmi səfərə gedib. Dövlətimizin başçısı İlham Əliyevin Tehranda rəsmi qarşılanma mərasimi olub.
- Prezident İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin əvvəlcə təkbətək, daha sonra hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olub.
- Prezident İlham Əliyevin və İran Prezidenti Həsən Ruhaninin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub və hər iki dövlət başçısı mətbuata bəyanatlarla çıxış edib.
- Prezident İlham Əliyev və İran İslam Respublikasının Ali Rəhbəri Seyid Əli Xamenein ilə görüşüb.

Prezident İlham Əliyev Xocalı faciəsi qurbanlarının xatirəsini anma mərasimində iştirak edib

♦ İyirmi dörd il əvvəl erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı faciəsi qurbanlarının xatirəsini yad edirlər.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva anma mərasimində iştirak etdilər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anma mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzdülər.

***

1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş verən Xocalı soyqırımı bəşər tarixində ən qanlı faciələrdən biridir. Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecədə erməni silahlı dəstələri hələ SSRİ dövründən Xankəndi şəhərində yerləşən, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etdilər.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz ədalətli hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Belə ki, bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürəkağrısıyla qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondu, xüsusilə, Fondun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə “Xocalıya ədalət!” kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Hersoqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras, Qvatemala, Panama, Sudan parlamentləri, eləcə də, ABŞ-ın 21 ştatının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyan və pisləyən sənədlər qəbul ediblər. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsbit edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də, hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.

FAKT... HADİSƏ... XƏBƏR...

Ermənistanın insanlıq əleyhinə cinayətlər törətdiyi müəyyənləşdirilib

♦ “Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlərlə bağlı indiyə kimi 7 mindən çox şahid, 26 min nəfərə yaxın zərərçəkmiş dindirilib”.

APA-nın xəbərinə görə, bunu Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Xidmətinin birgə istintaq qrupunun üzvü Ülvi Əhmədov deyib. O bildirib ki, 23 600 nəfərdən çox zərərçəkmiş şəxs, habelə zərərçəkmişin hüquqi varisi tanınıb: “809 müxtəlif ekspertiza təyin edilib. Eyni zamanda, çoxsaylı zəruri istintaq hərəkətləri yerinə yetirilib”.

Ü. Əhmədov qeyd edib ki, aparılan cinayət işləri üzrə Ermənistanın sülh və insanlıq əleyhinə müharibə cinayətləri törətdiyi müəyyənləşdirilib: “Ümumi cinayətlər kateqoriyasına aid banditizm, qəsdən adam öldürmə, qanunsuz silah saxlama, cinayət barədə məlumat verməmə və s. cinayətlər törətmiş 296 nəfər barəsində təqsirləndirilən şəxs qismində cəlbetmə qərarı çıxarılıb, məhkəmə qərarına əsasən barələrində həbs qəti imkan tədbiri seçilib və onların axtarışları ilə əlaqədar müvafiq sənədlərin aidiyyəti orqanlara göndərilməsi təmin edilib”.

Ü.Əhmədov əlavə edib ki, həmin 296 nəfər təqsirləndirilən şəxsdən 3-ü rus, 1-i ukraynalı, 14-ü erməni milliyyətindən olmaqla, 18 nəfəri 366-cı alayın hərbi qulluqçuları, 18 nəfəri daxili işlər orqanlarının, 11 nəfəri keçmiş DTK orqanlarının əməkdaşları olub: “Digərləri isə keçmiş partiya və sovet orqanlarında, təhsil, iaşə, nəqliyyat, kənd təsərrüfatı və müxtəlif sahələrdə çalışan vətəndaşlar olub”.

BU NÖMRƏDƏ

Xocalı soyqırımını unutmayaq! 2

Yenidənqurma işləri davam etdirilir 3

Aydaho Xocalı soyqırımını tanıyan 21-ci ABŞ ştatı oldu

♦ ABŞ-ın Aydaho ştatının qubernatoru K.L.Buç Otter xüsusi bəyannamə imzalayaraq fevralın 26-nı Aydahoda “Xocalı qətliamını anma günü” elan edib.

Azərbaycanın Los-Ancelesdəki baş konsulluğuna daxil olmuş bəyannamədə Xocalı qətliamı zamanı həyatını itirmiş azərbaycanlılardan bəhs olunur və bu dəhşətli faciə pislənilir.

Bu bəyannamə Aydaho ştatında Xocalı qətliamı ilə bağlı qəbul edilmiş ilk rəsmi sənəddir. Sənəddə 24 il əvvəl - 1992-ci il fevralın 26-da Xocalı qətliamı zamanı 600-dən çox günahsız mülki əhalinin, o cümlədən böyük sayda uşaq, qadın və qocaların kütləvi şəkildə qətlə yetirildiyi bildirilir. Həmçinin qeyd olunur ki, bu dəhşətli hadisə dünya xalqları arasında qarşılıqlı anlaşma, ünsiyyət və tolerantlığın nə qədər zəruri olduğunu göstərir.

Bəyannamə, eyni zamanda, Aydaho ştatının dövlət katibi Lorens Deni tərəfindən də imzalanıb. Beləliklə, ABŞ-da Xocalı qətliamını tanıyan ştatların sayı 21-ə çatıb.

ATƏT PA-nın sessiyasında Xocalı faciəsindən danışılıb

♦ “Biz terrorizmdən əziyyət çəkən xalqıq". APA-nın məlumatına görə, bunu Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin üzvü Tahir Mirkişili Vyanada ATƏT Parlament Assambleyasının qış sessiyasında çıxışı zamanı deyib.

O bildirib ki, terror hökumət səviyyəsində olanda, daha təhlükəli olur: “Bu gün bizim üçün əlamətdar gündür. Xocalıda baş verən faciədən 24 il keçir. Həmin hadisədə 613 nəfər həlak olub. Əgər biz terrordan və təhlükəsizlikdən danışırıqsa, əvvəlcə tarixə baxmalıyıq, bu kimi hadisələrin bir daha baş verməməsi üçün addımlar atmalıyıq”.

Prezident İlham Əliyev Gəncədə "Nizami" yarımstansiyasının açılışında iştirak edib

♦ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Gəncəyə səfəri çərçivəsində 35/6 kV-lik "Nizami" yarımstansiyasının açılışında iştirak edib.

"Azərişıq" ASC yaradıldıqdan sonra regionlardakı elektrik şəbəkələrinin mövcud vəziyyətinin qısa müddətdə hərtərəfli təhlili aparılaraq, ölkənin sosial-iqtisadi inkişaf strategiyasına və müxtəlif vaxtlarda qəbul edilmiş Dövlət proqramlarına uyğun olaraq, istehlakçıların etibarlı, təhlükəsiz və səmərəli elektrik enerjisi ilə təchiz edilməsi üçün bütün regionları əhatə edən dörd hissədən ibarət "İnkişaf və Yenidənqurma Proqramı" hazırlanaraq icrası uğurla həyata keçirilir. Hazırda bütün şəhərlərdə, rayon mərkəzlərində, qəsəbə və kəndlərdə yararsız, istismar müddəti başa çatmış transformatorların yenilənməsi, müasir tipli avadanlıqla təchiz edilməsi prosesi gedir. İlkin olaraq, ölkə üzrə komplekt transformator məntəqələri quraşdırılır ki, onlar da həm görünüşünə, həm də texniki göstəricilərinə görə əvvəlkilərdən tamamilə fərqlənir. Gəncədə 35/6 kV-lik "Nizami" yarımstansiyasının inşası da son illərdə ölkəmizin regionlarının elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması istiqamətində görülən işlərin davamlı olduğunu nümayiş etdirir.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev məlumat verdi ki, Gəncənin böyük bir hissəsinin elektrik təchizatının yaxşılaşdırılması, eləcə də ərazidə elektrik enerjisinə artan tələbatın ödənilməsi, 35 kV-lik elektrik şəbəkələri ilə əlaqələndirilməsi məqsədilə 35/6 kV-lik "Üzgüçülük" yarımstansiyasının yerində müasir tipli tam qapalı 35/6 kV-lik yeni "Nizami" yarımstansiyası tikilib. Yarımstansiyanın tikintisinə 2015-ci ilin aprelində başlanılıb. Yeni yarımstansiya 6 mindən çox abonentin elektrik enerjisi ilə təminatını daha da yaxşılaşdıracaq. Ümumi sahəsi 1700 kvadratmetr olan yarımstansiyada 35/6 kV-lik iki transformator və 35/6 kV-lik qapalı paylayıcı avadanlıq quraşdırılıb.

Burada həm də Gəncə Şəhər Elektrik Şəbəkəsinin inzibati binası yerləşir. Binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub, Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən guşə yaradılıb. Yarımstansiyada və inzibati binada 80-ə yaxın işçi çalışacaq.

Qeyd olundu ki, yeni yarımstansiya şəhərin mərkəzi hissəsində mövcud elektrik yüklərinin, eləcə də perspektivdə on il ərzində yaranacaq yüklərin qarşılanmasını təmin edəcək. Yeni yarımstansiya şəhərin ən mühüm obyektlərini və 6000-dən çox olan əhali sektorunu elektrik enerjisi ilə təmin edəcək. Yarımstansiyanın tikintisi və Gəncə şəhərində 3 ədəd 110 kV-lik "Az.KTA", "Gəncə-1" və "Bağmanlar" yarımstansiyalararası 35 kV-lik elektrik şəbəkələri vasitəsilə əlaqələndirilməsi 35 kV-lik dairəvi elektrik təchizat sxeminin yaradılmasına səbəb olub. Bu da öz növbəsində şəhərin mərkəzi hissəsinin elektrik təchizatının dayanıqlılığını və etibarlılığını təmin edəcək. Yarımstansiya müasir standartlara cavab verən avadanlıq, eleqaz və vakuum tipli açarlarla təchiz edilməsi ilə yanaşı, məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulub. Yarımstansiyada xaricdə və yerli müəssisələrdə istehsal olunan elektrik avadanlığı, müasir elektron tipli rele mühafizəsi və avtomatika sistemi, respublikada istehsal olunmuş güc transformatorları quraşdırılıb. Burada şəbəkə işçiləri və növbətçi heyət üçün müvafiq otaqlar inşa edilib, yanğına qarşı xəbərdarlıq sistemi, yanğından mühafizə hovuzları yaradılıb. Gəncənin qədim şəhərsalma ənənəsinə uyğun olaraq tikilən yarımstansiyanın birinci mərtəbəsi kərpicdən olmaqla xüsusi memarlıq üslubunda inşa edilib. İnşaat işləri zamanı 900 metr uzunluğunda asfalt yol salınıb, ətraf abadlaşdırılıb, yaşıllıq zolaqları yaradılıb.

Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

Diqqətə çatdırıldı ki, yarımstansiya şəhərin qədim şəhərsalma ənənəsinə uyğun olaraq birinci mərtəbə kərpicdən olmaqla xüsusi memarlıq üslubunda inşa edilib. Regionda gedən yenidənqurma işlərinə uyğun olaraq, müvafiq şəbəkədə çalışan kadrların təkmilləşdirilməsi, onların ixtisasının artırılması və yenidən hazırlanması üzrə fəaliyyəti təmin etmək məqsədilə Gəncədə yeni tikilmiş "Nizami" yarımstansiyasında "Azərişıq" ASC-nin Qərb Regional Tədris Mərkəzi yaradılıb. Mərkəzdə 6/0,4 kV-lik paylayıcı sistem, rele mühafizəsi və avtomatika, əməyin mühafizəsi və təhlükəsizlik texnikası, uçota nəzarət sayğaclarının test və idarəetmə sistemləri, kabel armaturlarının quraşdırılması, istismarı və təmiri, elektrik avadanlığının sınağı və diaqnostikası, digər təcrübə bölmələri var. Tədris Mərkəzi elektroenergetikanın müxtəlif ixtisas sahələrini əhatə edən yeni dərs vəsaitləri, eləcə də şəbəkəyə tətbiq olunan müasir avadanlığın xarakteristikası və iş prinsipi üzrə metodik praktikumlarla təmin olunub. Yeni yaradılan Tədris Mərkəzindən qərb regionu ilə yanaşı, şimal-qərb və Mərkəzi Aran regionlarının əməkdaşları da yararlana biləcəklər.

Dövlət büdcəsinin dəqiqləşdirilmiş gəlirləri 16 milyard 822 milyon manat proqnozlaşdırılır

♦ 2016-cı il üçün dövlət büdcəsinin dəqiqləşdirilmiş gəlirləri 16 milyard 822 milyon manat proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş müvafiq göstərici ilə müqayisədə 2 milyard 256 milyon manat və ya 15,5 faiz çoxdur.

AZƏRTAC xəbər verir ki, bu barədə maliyyə naziri Samir Şərifov məlumat verib.

Qeyd edilib ki, 2016-cı il dəqiqləşdirilmiş dövlət və icmal büdcələrin hesablamaları zamanı xam neftin satış qiymətinin 1 barreli üçün müəyyən edilmiş qiymət təsdiq olunmuş proqnoza nisbətən 2 dəfə aşağı endirilərək 25 ABŞ dolları səviyyəsində götürülüb. Bu il dövlət büdcəsi gəlirlərinin 7 milyard 615 milyon manatı və ya 45,3 faizi Dövlət Neft Fondundan transfertin, 7 milyard 10 milyon manatı və ya 41,7 faizi Vergilər Nazirliyinin xətti ilə daxilolmaların, 1 milyard 810 milyon manatı və ya 10,7 faizi Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 387,0 milyon manatı və ya 2,3 faizi sair daxilolmaların payına düşür. Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin məbləği manat ifadəsində 7 milyard 615 milyon manat, təsdiq olunan göstəricidən 1 milyard 615 milyon manat və ya 26,9 faiz çox olsa da, ABŞ dolları ifadəsində 1,0 milyard ABŞ dolları azaldılaraq həmin məbləğ qədər Fondun qalığına qənaət ediləcək.

"Dövlət büdcəsinin daxilolmalarının tərkibində qeyri-neft sektoru üzrə büdcə gəlirləri 7 milyard 597 milyon manat və ya 45,2 faiz nəzərdə tutulur ki, bu da təsdiq olunmuş büdcə göstəricisinə nisbətən 821,0 milyon manat və ya 12,1 faiz çoxdur. Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə nəzərdə tutulan daxilolmalar təsdiq olunmuş proqnozdan 408,0 milyon manat və ya 6,2 faiz çoxdur. Artım, bütövlükdə, qeyri-neft sektorundan daxilolmaların payına düşəcək", - deyə nazir diqqətə çatdırıb.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Müqəddəs Marçellinio və Pietro katakombalarının açılış mərasimində iştirak edib

♦ Fevralın 23-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə Vatikanda bərpa edilən Müqəddəs Marçellinio və Pietro katakombalarının açılışı olub. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərasimdə iştirak edib.

Əvvəlcə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Romadakı Massimo Sarayına gələrək burada Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası ilə bağlı təqdimatda iştirak edib.

Muzeyin direktoru Rita Paris Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı, digər qonaqları salamlayıb. Professor Fabrizio Biskonti Roma katakombalarının bərpasına göstərdiyi diqqətə görə Mehriban Əliyevaya xüsusi minnətdarlığını bildirib. Sonra katakombaların bərpasından bəhs edən filmin nümayişi olub.

Vatikanın Mədəniyyət üzrə Pontifik Şurasının sədri kardinal Canfranko Ravazi Müqəddəs Marçellinio və Pietro katakombalarının dünya mədəniyyəti, xüsusilə də xristianlar üçün böyük mənəvi dəyəri olduğunu vurğulayıb. Müsəlman ölkəsi olan Azərbaycanın Heydər Əliyev Fondu isə bu mənəvi dəyərin yaşamasına böyük dəstək verib.

Sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva çıxış edib. O, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dünya mədəni irsinin qorunmasındakı fəaliyyətindən danışıb, ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin sülh və mehribanlıq şəraitində yaşadıqlarını vurğulayıb və deyib: "Hörmətli dostlar, Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin və sivilizasiyaların təmas və ünsiyyət məkanı olmuşdur. Asiya ilə Avropa arasında yerləşən ölkəmizin mədəni müxtəlifliyinə bu coğrafi yerləşmə öz təsirini göstərib. Tarix boyu bu qədim torpaqda müxtəlif dinlərin, mədəniyyətlərin, etnik qrupların nümayəndələri sülh, qardaşlıq və hörmət şəraitində yaşayıblar. Minilliklərlə formalaşan bu ab-hava Azərbaycan cəmiyyətində qorunub saxlanılıb.

Azərbaycan bu gün çoxmillətli, çoxkonfessiyalı ölkədir və yenə də tolerantlıq və dözümlülük ideyaları cəmiyyətdə çox güclüdür. Ölkəmizdə heç vaxt dini zəmində qarşıdurma olmayıb və olmayacaq. Azərbaycan dövlətinin siyasəti ondan ibarətdir ki, dini münasibətlər çox sağlam zəmində qurulub. Biz bütün dini tədbirləri, bayramları birgə keçiririk. Bizim din xadimlərimiz hər zaman birlik nümayiş etdirir. Əlbəttə, cəmiyyətdə hökm sürən tolerantlıq və dözümlülük ab-havası Azərbaycan xalqının yaşam tərzidir.

Əfsuslar olsun ki, son zamanlar dinlərarası münasibətlərdə böhran yaşayır. Biz islamofobiya, ksenofobiya, antisemitizm kimi meyillərin güclənməsini görürük. Dini zəmində qanlı toqquşmalar, münaqişələr baş verir. Minlərlə günahsız insan həlak olur, milyonlarla insan öz doğma yurdlarını tərk edib qaçqın və məcburi köçkün həyatı sürməyə məcbur qalır. Eyni zamanda, sərhədlər bağlanır, antimiqrant meyilləri güclənir. Əminəm, bu hallar bizim hər birimizi narahat edir və bu gün Azərbaycanın dünyaya mesajı ondan ibarətdir ki, multikulturalizm mümkündür. Azərbaycanda müşahidə olunduğu kimi, müxtəlif dinlərə və millətlərə mənsub olan insanlar, müxtəlif mədəniyyətlərin nümayəndələri birgə sülh və qardaşlıq şəraitində yaşaya bilərlər. Azərbaycan müsəlman aləminin ayrılmaz bir hissəsidir. Eyni zamanda, bizi Avropa ölkələri ilə güclü əlaqələr birləşdirir. Biz siyasi, iqtisadi, enerji, humanitar sahələrdə əməkdaşlıq qurmuşuq. Azərbaycan həm İslam Əməkdaşlıq Təşkilatına, həm də Avropa Şurasına üzv olan nadir ölkələrdən biridir. Bu il ölkəmizdə "Multikulturalizm ili" elan olunub və aprel ayında Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçiriləcək".

2015-ci ildə Bakıda ilk Avropa Oyunlarının böyük uğurla keçirildiyini qeyd edən Mehriban xanım Əliyeva 2017-ci ildə Bakının IV İslam Həmrəylik Oyunlarına ev sahibliyi edəcəyini bildirib.

Azərbaycan dövlətinin xristian abidələri sırasında öz tarixi və mədəni dəyəri ilə xüsusi yer tutan Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpasına öz töhfəsini verməsindən qürur duyduğunu vurğulayan Mehriban xanım Əliyeva bərpa işlərində əməyi olan hər bir insana minnətdarlığını çatdırıb.

***

Təqdimat mərasimindən sonra Mehriban Əliyeva Massimo Sarayı muzeyində saxlanılan şah əsərlərlə tanış olub. Daha sonra Müqəddəs Marçellinio və Pietro katakombalarının açılışı olub.

Sonda mərasimə gələnlər və kardinal Ravazi bir daha Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya bu xeyirxah fəaliyyətinə görə minnətdarlıq ediblər.

Eray Guçlüer: "Azərbaycan Ordusu kifayət qədər modernləşmiş müdafiə qüdrətinə malikdir"

♦Türkiyədə fəaliyyət göstərən Avrasiya Strateji Araşdırmalar Mərkəzinin məsul əməkdaşı, ehtiyatda olan polkovnik Eray Guçlüer AZƏRTAC-ın xüsusi müxbirinin suallarını cavablandırıb. Müsahibəni təqdim edirik:

-Hazırda dünyada tüğyan edən terrorçuluğun bu qədər sürətlə yayılmasının səbəbini nədə görürsünüz?

-Dünyadakı ikili standartlar beynəlxalq münasibətlərdə kifayət qədər ciddi problemlər yaradıb. Heç bir terror təşkilatı öz-özlüyündə yarana bilməz. Terror təşkilatlarının arxasında böyük güclər və davamlı maliyyə qaynaqları dayanır. Təəssüf ki, dünyadakı ikili standartlar terrorçuluğa münasibətdə də özünü ortaya qoyub. XX əsrdə Azərbaycanın və Türkiyənin tarixində çox ağır terror hadisələri yaşanıb. Çoxlu sayda böyük dövlət xadimlərimiz və diplomatlarımız, sıravi vətəndaşlarımız erməni terrorizminin qurbanı olublar. Amma ötən dövrdə dünya birliyi erməni terrorizminə heç də yetərincə nifrətlə baxmadı. Təbii ki, belə olan halda cinayətə meyilli digər qüvvələr də terrorizm fəaliyyətinə başladılar. Bəzən böyük güclər həyata keçirə bilmədikləri siyasəti terror təşkilatlarının əli ilə reallaşdırmağa cəhd göstərirlər.

-Ümummilli lider Heydər Əliyev "terrorçunun dini və milləti olmaz" fikri ilə tanışsınızmı?

-Bəli. Bu, ulu öndər Heydər Əliyevin vaxtında tamamilə doğru olaraq dediyi və həmişə öz dəyərini saxlayacaq bir ifadədir. Terrorçu və separatçı qüvvələrin cəzasızlığı terrorizmə və separatçılığa maraq göstərən qüvvələri həvəsləndirir. Təcavüzkar Ermənistan Azərbaycan torpaqlarının 20 faizini başqa-başqa qüvvələrin köməyi ilə işğal altında saxlayır. Dünya birliyinin bu ədalətsizliyə göz yumması səbəbindən digər dövlətlərdə də separatçılıq meyilləri artır. Heç kimə sirr deyil ki, əgər maraqlı qüvvələr Ermənistanın arxasından çəkilsələr Azərbaycan tərəfi Dağlıq Qarabağ problemini ən qısa zamanda ədalətli bir formada həll edər.

-Azərbaycan Ordusunun vəziyyətini necə dəyərləndirirsiniz?

-Mən uzun illər Azərbaycanda xidmət etmişəm. Azərbaycan Ordusu kifayət qədər modernləşmiş müdafiə qüdrətinə malikdir. Amma ordunun ən mühüm göstəricisi əsgərin psixoloji hazırlığıdır. Azərbaycan əsgərinin psixoloji durumu çox yüksək səviyyədədir. Azərbaycan Ordusunun ən böyük gücü isə Ali Baş Komandan İlham Əliyevin yenilməz iradəyə və cəsarətə sahib olmasıdır.

-Yaxın Şərqdə baş verən münaqişələr Dağlıq Qarabağ probleminə necə təsir göstərə bilər?

-Ermənistan tərəfi həmişə dəyişən ictimai-siyasi vəziyyətlərə uyğun olaraq Azərbaycan və Türkiyəyə qarşı təxribatlar həyata keçirib. İstisna deyil ki, təcavüzkar tərəf Yaxın Şərqdəki gərginlikdən istifadə edərək Dağlıq Qarabağ ətrafında hərbi vəziyyəti gərginləşdirməklə digər hərbi qüvvələri də münaqişə bölgəsinə cəlb etməyə çalışır. Amma bütün dünya, o cümlədən ermənilər yaxşı başa düşürlər ki, istənilən halda Türkiyə Ordusu Azərbaycan xalqının yanındadır. İndiki vəziyyət sovetlər birliyinin süqutu ərəfəsindəki durumla müqayisədə tamamilə fərqlidir.

YADDAŞ

♦1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməyi ilə Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər.

"Böyük Ermənistan" dövləti yaratmaq kimi xəstə xülyanın əsiri olmuş erməni millətçilərinin xalqımıza qarşı törətdikləri bu qətliam nəticəsində 613 nəfər həlak olmuş, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri qocalardır. 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini itirmiş, 130 uşaq valideynlərindən birini itirmiş, 487 nəfər yaralanmış, 1275 nəfər əsir götürülmüş, 150 nəfər itkin düşmüşdür. Bu vəhşi əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi Xocalı faciəsinin beynəlxalq hüquqa əsasən məhz soyqırımı olduğunu təsdiq edir. Xocalıda baş verənlər təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyil, bəşəriyyət, insanlıq əleyhinə törədilmiş qanlı cinayətdir.

Qədim Azərbaycan şəhəri olan Xocalı əlverişli coğrafi mövqedə - Xankəndidən 10 km cənub-şərqdə, Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşir. Həmin vaxt Qarabağda yeganə aeroport da Xocalıda idi.

Xocalı əhalinin tarixən məskunlaşdığı qədim yaşayış məskənidir. Xocalı yaxınlığında bizim e.ə. XIV-VII əsrlərə aid edilən Xocalı-Gədəbəy mədəniyyətinin abidələri yerləşir. Arxeoloji qazıntılar zamanı burada son bürünc və ilkin dəmir dövrlərinə aid edilən qədim abidələr, müxtəlif növ daş, bürünc, sümük bəzək əşyaları, gildən ev əşyaları və s. tapılıb. Burada tapılmış muncuq dənələrindən birində Assuriya şahı Adadnerarinin (bizim e.ə. 807-788-ci illər) adı yazılmışdır.

Şəhərin əhalisi əsasən üzümçülük, heyvandarlıq, arıçılıq və əkinçiliklə məşğul idi. Burada toxuculuq fabriki, iki orta məktəb və iki natamam orta məktəb var idi. Son illərdə baş vermiş hadisələrlə əlaqədar olaraq Fərqanədən (Özbəkistan) qaçqın düşmüş 54 məhsəti-türkü ailəsi, həmçinin Ermənistandan və Xankəndidən qovulmuş azərbaycanlıların bəziləri burada məskunlaşmışdılar.

Xocalı şəhəri 1991-ci ilin oktyabrından blokada şəraitində idi. Oktyabr ayının 30-da avtomobil əlaqəsi kəsilmiş və yeganə nəqliyyat vasitəsi vertolyot qalmışdı. Xocalıya sonuncu vertolyot 1992-ci il yanvarın 28-də gəlmiş, sonra bu əlaqə də kəsilmişdi.

1992-ci il yanvarın 2-dən şəhərə elektrik verilmirdi. Xocalı ancaq əhalinin qəhrəmanlığı və müdafiəçilərin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdu. Şəhərin müdafiəsi əsasən atıcı silahlarla silahlanmış yerli özünümüdafiə dəstəsi, milis və Milli Ordunun döyüşçülərindən təşkil olunmuşdu.

Fevralın ikinci yarısından başlayaraq Xocalı erməni silahlı dəstələrinin mühasirəsinə alındı və hər gün toplardan, ağır texnikadan atəşlərə, erməni dəstələrinin həmlələrinə məruz qaldı.

Fevralın 25-də axşam saatlarında erməni silahlıları və 366-cı alayın hərbi texnikası döyüş mövqelərinə çıxdı, şəhər toplardan, tanklardan, "Alazan" tipli zenit qurğularından güclü atəşə tutulduqdan sonra hücum başlandı. Xocalıya hücum üç istiqamətdən aparıldığından əhali Əskəran istiqamətində qaçmağa məcbur oldu. Yolda dinc əhalinin qarşısını kəsən erməni silahlı dəstələri günahsız insanları amansızcasına qətlə yetirdilər...

Həmin o ağır günlərdə Azərbaycan silahlı qüvvələri Xocalı sakinlərinin köməyinə çata bilmədi, hətta meyitlərin götürülməsi belə mümkün olmadı. Bu zaman ermənilər isə vertolyotlarla, ağ geyimli xüsusi qruplarla meşələrdə gizlənmiş insanların axtarışını aparır, aşkar edilənləri əsir götürür, işgəncələrə məruz qoyurdular.

Fevralın 28-də tərkibində yerli jurnalistlər də olan qrup 2 vertolyotla azərbaycanlıların həlak olduqları yerə çata bildilər. Gördükləri mənzərə hamını dəhşətə gətirdi - düzənlik cəsədlərlə dolu idi...

Ermənilərin Xocalıda amansız qırğın törətməsinə baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir iş görmədi.

Yalnız ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra bu qanlı faciəyə ilk dəfə olaraq hüquqi-siyasi qiymət verildi, soyqırımı haqqında həqiqətlərin dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görüldü. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi qəbul etdi. Həmin dövrdən başlayaraq dünya azərbaycanlıları və Azərbaycan hökuməti erməni millətçilərinin xalqımıza qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir.

Hər il bu müdhiş faciənin ildönümü ölkəmizdə, dünyanın müxtəlif dövlətlərində yaşayan soydaşlarımız və dost xalqların nümayəndələri tərəfindən ürəkağrısı ilə qeyd olunur. Dünyanın müxtəlif ölkələrində Xocalı faciəsi qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir, ermənilərin vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər nümayiş olunur. Dünya ölkələrinin nüfuzlu qəzetlərində faciəyə həsr olunmuş məqalələr çap olunur, televiziya və radio kanallarında verilişlər hazırlanır.

Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun da xüsusi xidmətləri var. Həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyət göstərən "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində dünya ölkələrində mitinqlər, yürüşlər və tədbirlər təşkil olunur. Kampaniyanın əsas məqsədi Xocalı qətliamının insanlığa qarşı törədilmiş ən böyük cinayət kimi beynəlxalq ictimaiyyət tərəfindən tanınmasıdır. Bu tədbirlər yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzünü ifşa edir, dünya ictimaiyyəti Xocalı həqiqətlərini qəbul etməyə başlayır. Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır.

...Azərbaycan xalqı Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, işğal olunmuş torpaqlarımızın azad edilərək ölkəmizin ərazi bütövlüyünün bərpası ümidi ilə yaşayır və bu günün uzaqda olmadığına inanır. Xalqımız inanır ki, Xocalı soyqırımının günahkarları layiqli cəzalarını alacaqlar. Çünki bu dəhşətli cinayət cəzasız qala bilməz.

Xocalı soyqırımında təqsirli bilinən 39 nəfər barəsində həbs-qətimkan tədbiri seçilib

♦ "Xocalı soyqırımında təqsirli bilinən 39 nəfər barəsində soyqırımı və digər ağır maddələrlə məhkəmələr tərəfindən həbs-qətimkan tədbiri seçilib, onlar axtarışa verilib".

APA-nın xəbərinə görə, bunu Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Xidmətinin birgə yaradılan İstintaq Qrupunun üzvü Ələkbər Xəlilov deyib.

O qeyd edib ki, axtarışa verilənlərdən 18 nəfəri 366 motoatıcı alayın hərbçiləri olub: "Onların arasında erməni, rus və başqa millətlərdən olan şəxslər var. Eyni zamanda, axtarışa verilənlər arasında Xankəndi və Əsgəran polis idarəsinin əməkdaşları da var". Ə. Xəlilov əlavə edib ki, istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Dövlət Komissiyası: Erməni əsirliyində olmuş insanlarda yoluxucu xəstəliklər aşkarlanıb

♦ "Erməni əsirliyində olmuş insanlar üzərində aparılan tibbi müayinələr nəticəsində əsirlərdə yoluxucu xəstəliklər aşkarlanıb".

APA-nın xəbərinə görə, bunu Azərbaycanın Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının işçi qrupunun rəhbəri İsmayıl Axundov deyib. O bildirib ki, Ermənistanda əsir və girovların yaş həddinə məhəl qoyulmayıb: "Girovluqda yaşı 80, hətta 90-dan yuxarı şəxslər var idi. Eyni zamanda, Xocalıda əsir və girov götürülən insanların taleyi haqda məlumat yoxdur".

energetika

Azərbaycan ilə İran arasında enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib

♦ İran bütün istiqamətlərdə olduğu kimi, enerji sahəsində də Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsinə hazırdır. Hər iki ölkənin zəngin enerji potensialı bu sahədə əməkdaşlığın dərinləşdirilməsinə zəmin yaradır. Bu potensialdan istifadə etmək dövlətlərimizin maraqlarına cavab verir.

AZƏRTAC-ın məlumatına görə, bu fikirləri İranın energetika naziri Həmid Çitçiyan fevralın 21-də İranda səfərdə olan Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayevlə görüşdə bildirib.

İranlı nazir qeyd edib ki, Azərbaycanın Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi ilə əldə olunan razılaşmaya əsasən, Xoaf və Meşkinşəhərdə günəş enerjisi stansiyası tikiləcək. Azərbaycanın bu sahədə kifayət qədər təcrübəsi var və birgə layihənin həyata keçirilməsi faydalı əməkdaşlığın əsasını yaradacaq.

Ş.Mustafayev Araz çayı üzərində birgə su elektrik stansiyasının tikintisi haqqında əldə edilmiş razılaşmanın təsdiqlənməsinin və icrasının vacibliyini nəzərə çatdırıb.

O bildirib ki, hər iki ölkənin sərhədyanı bölgələrində yaşayan əhalinin elektrik enerjisinə tələbatını daha da yaxşılaşdırmaq üçün işlərin sürətləndirilməsi zəruridir.

Söhbət zamanı İrana qarşı tətbiq olunmuş sanksiyaların aradan qaldırılmasının əməkdaşlıq üçün daha əlverişli şərait yaratdığı vurğulanıb. Həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

“Xudafərin” və “Qız Qalası” hidroqovşaqları və SES-lərinin tikintisinin davam etdirilməsinə dair mühüm Saziş

Böyük siyasi-iqtisadi əhəmiyyətə malik bu sənəd Azərbaycan və İran Prezidentlərinin tapşırığı ilə imzalanıb

♦ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 23-də İran İslam Respublikasına rəsmi səfəri zamanı hər iki dövlət başçısının verdiyi tapşırığa müvafiq olaraq, “Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında” Sazişin mətni razılaşdırılıb və imzalanıb. Sənədi Azərbaycan-İran hökumətlərarası Komissiyasının həmsədrləri - Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və İranın rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezi imzalayıblar.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Sazişdə Azərbaycan Respublikasının və İran İslam Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət prinsipləri bəyan edilir, BMT qətnamələrinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsinin zəruriliyi, hər iki tərəfin “Xudafərin” və “Qız Qalası” hidroqovşaqları boyu bütün su və enerji ehtiyatlarına bərabər hüquqları vurğulanır.

Sazişdə, həmçinin hidroqovşaqların və su elektrik stansiyalarının tikintisinin başa çatdırılması, eləcə də Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa edilənədək hidroqovşaqlarda və su elektrik stansiyalarında su və enerji ehtiyatlarının qorunması və istismarının İran İslam Respublikası tərəfindən təmin edilməsi və tərəflərin bu obyektlərdən bərabər əsaslarla yararlanması əks olunub.

Sazişə əsasən, tikinti işlərinə nəzarət və istismar prosesində azərbaycanlı mütəxəssislər iştirak edəcəklər.

Azərbaycan üçün olduqca böyük əhəmiyyət kəsb edən bu mühüm sənədin imzalanması Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin nəticəsi, dövlətimizin beynəlxalq aləmdə yüksək nüfuzunun göstəricisi, İran İslam Respublikası ilə son illərdə sürətlə inkişaf edən, dostluq və mehriban qonşuluq prinsiplərinə əsaslanan və regionda sülh yaratmağa yönələn münasibətlərinin təzahürüdür.

Yenidənqurma işləri davam etdirilir

♦ Enerjitəchizat müəssisəsinin daha da dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təchiz edilməsi üçün qabaqlayıcı tədbirlər davam etdirilir.

“Azərenerji” ASC-nin Elektrik Enerjisinin Ötürülməsi İdarəsindən Səhmdar Cəmiyyətin Mətbuat xidmətinə daxil olan məlumata görə, digər enerji obyektlərində olduğu kimi Abşeron Regional Elektrik Şəbəkəsinin (REŞ) eyni adlı şəbəkə sahəsinin xidməti ərazisinə aid olan enerji obyektlərində icra edilmiş, eyni zamanda icrasına başlanmış tədbirlər ötürücü şəbəkənin daha da dayanıqlığının təmin olunmasına xidmət edir.

Mənbənin bildirildiyinə görə, 110 kV-lik Qala yarımstansiyasında 40 MVA-lıq transformator əsaslı təmir olunmuş, 110 kV-lik açıq paylayıcı quruluşda (APQ) 1-ci şin sistemində gərginlik transformatoru yeni tiplisi ilə əvəz edilmişdir. Eyni zamanda APQ-də Dübəndi hava xəttinin (HX) cərəyan transformatory da yenilənmişdir. Bütün bunlarla yanaşı, həmin bu xətdə yeni tipli rele və digər avadanlıqlar da quraşdırılmışdır.

Mənbəyə istinadən qeyd edək ki, sahənin xidməti ərazisində olan 220 kV-lik “Nizami” yarımstansiyasında 220 kV-lik 2-ci Hövsan HX-nin mühafizə və idarəetmə dövrələri, 1 saylı transformatorun isə mühafizələri yoxlanılmışdır. Eyni zamanda 110 kV-lik bir kabel xəttinin və bir neçə bölmənin yağ açarları eleqaz açarlarla əvəz edilmişdir. Yeri gəlmişkən, analoji işlər 220 kV-lik Hövsan yarımstansiyasında da həyata keçirilmişdir.

“Bütün bunlarla yanaşı 110 kV-lik Dübəndi yarımstansiyasında APQ-də eynigərginlikli ayrıcılar dəyişdirilmişdir. Eyni zamanda Dərbənd yarımstansiyasında APQ-də yağ açarları eleqaz açarlarla əvəz olunmuş və burada yenidənqurma işləri davam etdirilir”, – deyən mənbə onu da qeyd etdi ki, həyata keçirilən tədbirlərin siyahısına 110 kV-lik Əhmədli, Maştağa, 8-ci km yarımstansiyalarında aparılan yenidənqurma və təmir işləri də daxildir.

“Müəssisənin xidməti ərazisində təmir qrafikinə uyğun əsaslı və cari təmir işləri həmişə keyfiyyətlə yerinə yetirilir” – deyən mənbə onu da vurğuladı ki, təmir işləri elektrik verilişi xətlərindən də yan ötməmişdir. Belə ki, 110 kV-lik ikidövrəli 1-ci Əhmədli və 1-Sığ HX-nin 25 dayağı dəyişdirilmiş, naqillər yenisi ilə əvəz olunmuş və işlər davam etdirilir. 2-ci və 3-cü Əhmədli HX-nin isə 8 dayağı və naqilləri yenilənmişdir. Analoji işlər 2-ci Suraxanı və 5-ci Ramana HX-lərində də həyata keçirilmişdir.

Digər yenidənqurma və müxtəlif təyinatlı təmir işlərindən danışan mənbə onu da bildirdi ki, müvafiq enerji obyektlərində aparılan yenidənqurma işləri istehlakçıların mövcud iqlim şəraitində enerjiyə olan tələbatını daha da dayanıqlı və səmərəli etmişdir.

Sonda onu da qeyd edək ki, digər müəssisələrdə olduğu kimi bütün bu işlərlə yanaşı, yarımstansiyalarda yanğın təhlükəsizliyinin təmin edilməsi istiqamətində də müvafiq tədbirlər yerinə yetirilib. Elektrik verilişi xətlərinin mühafizə zonaları və yarımstansiyaların ərazilər quru otlardan təmizlənmiş, güc transformatorlarında yağ sızmaları aradan qaldırılmış və digər təhlükəsizlik tədbirləri görülmüşdür. O cümlədən, mühafizə avadanlıqlarının nəzarət və ölçü cihazları təftiş edildikdən sonra aşkarlanan qüsurlar aradan qaldırılıb. Eləcə də bütün yarımstansiyalar ilkin yanğınsöndürmə avadanlıqları ilə təmin olunub, eyni zamanda 220 kV-lik Nizami, 110 kV-lik Əhmədli, 8-ci km yarımstansiyalarında su hövzlarının yaxınlığında yanğınsöndürmə üçün köpük çənləri quraşdırılmışır. Xatırladaq ki, Abşeron Regional Elektrik Şəbəkəsi (REŞ) Bakı və Abşeron şəbəkə sahələrini birləşdirir.

DÜNYADAN SORAQLAR

FİNLANDİYA

AES tikintisi üçün özül yerinin təməli qoyulub

♦ Finlandiyada «Xanxikivi-1» AES-in tikinti meydançasında özül yerinin təməlqoyma mərasimi keçirilib.

Mərasimdə Rusiya tərəfindən «Rosatom» Dövlət Korporasiyası baş direktorunun müavini – inkişaf və beynəlxalq biznes üzrə direktoru Kiril Komarov, «Rusatom Enerqo İnterneşnl» SC-nin baş direktoru Nikita Konstantinov, «Rusatom Enerqo İnterneşnl» SC baş direktorunun biznesin inkişafı üzrə müavini Anastasiya Zoteyeva, «RAOS Project Oy» idarə heyətinin sədri Vadim Ryabov və «TİTAN-2» ASC direktorlar şurasının sədri Qriqori Naginski iştirak ediblər. Finlandiya tərəfi isə «Fennovoima» şirkətinin layihə direktoru Minna Forsstryom və Pyuxyaoki şəhər bələdiyyəsinin meri Matti Soronenlə təmsil olunub.

Tədbirin gedişi zamanı qaya süxurlarında xüsusi partlayış aparılıb və memorial daş bərkidilib. Mərasimdən sonra layihəyə cəlb edilən şirkətlərin rəhbərləri «Xanxikivi-2» AES-in baş podratçısının Pyuxyaokidəki yeni ofisinə baş çəkiblər. Sonra Pyuxyaoki bələdiyyəsi meriyasında görüş keçirilib və qonaqlar KİV nümayəndələrinin suallarını cavablandırıblar.

«Rosatom» Dövlət Korporasiyası baş direktorunun müavini Kiril Komarov qeyd edib ki, «Xanxikivi-1» AES regionun iqtisadiyatına müsbət təsir göstərəcək. «Bu il biz AES-in tikintisinə lisenziya almaq üçün sənədlər zərfinin hazırlanmasını başa çatdıracağıq. İndi sifarişçi və partnyorumuz olan «Fennovoima» şirkəti ilə fəal işləyirik», - deyə Kiril Komarov bildirib. O, həmçinin «Xanxikivi-1» AES layihəsinin reallaşdırılmasına dəstək verdiklərinə görə bələdiyyə rəhbərliyinə, finlandiyalı sahibkarlara və Finlandiya hökumətinə təşəkkürünü söyləyib.

Minna Forsstryom bildirib ki, bu mərasim layihənin həyata keçirilməsində mühüm addıma çevrilib. «Layihənin cədvələ uyğun surətdə reallaşdırılması bizi doğrudan da sevindirir», - deyə o əlavə edib.

«Xanxikivi-1» atom elektrik stansiyasının tikilməsinə dair müqavilə 2013-cü ilin dekabrında Finlandiyanın «Fennovoima Oy» şirkəti və «Rusatom Enerqo İnterneşnl» (əvvəlki adı «Rusatom Oversiz») arasında imzalanıb. 2014-cü ilin baharında «RAOS Voima Oy» («Rusatom Enerqo İnterneşnl» SC-nin törəmə şirkəti) və Finlandiyanın «Voimaosakeyhtio SF» şirkəti səhmlərin alqı-satqı müqaviləsinin imzalandığını elan ediblər. Müqaviləyə əsasən «Fennovoima»nın səhmlərinin 34 faizi, «RAOS Voima Oy» şirkətinin mlkiyyətinə keçib. 2014-cü ilin oktyabrında «Atomproyekt» SC və «Rusatom Enerqo İnterneşnl» SC «Xanxikivi-1» AES layihəsinin tam layihə zərfinin işlənməsinə dair müqavilə izalayıblar. Stansiyanın layihəsi BAEA-nın və EUR-un normalarına müvafiq gəlir və Finlandiyanın milli təhlükəsizlik tələblərinə uyğunlaşdırılacaq. «Fennovoima Oy» şirkəti 2015-ci ilin iyun ayında AES-in tikintisinə lisenziya almaq üçün icazə verib. «Xanxikivi-1» AES-in kommersiya istismarına verilməsi 2024-cü il üçün nəzərdə tutulub.

UKRAYNA

Materialları tənzimləyici nəzarətdən ayıran qurğu yaradılacaq

♦ Çernobıl AES-in materialları tənzimləmə nəzarətindən azad etmək üçün qurğu yaratması ilə əlaqədar bağlanan müqavilə «Nüvə təhlükəsizliyində əməkdaşlıq aləti» (NTƏA) proqramı çərçivəsində Avropa Komissiyası tərəfindən maliyyələşdirilir. Azadetmə qurğusunu yaratmaq üçün zəruri olan avadanlıq layihələndiriləcək, hazırlanaraq ÇAES-in sənaye meydançasına gətiriləcək.

Layihə çərçivəsində avadanlığın quraşdırılması, qəbulu sınaqları, sertifikasiyası, lisenziyalaşdırılması nəzərdə tutulub. Bu əməliyyatlardan sonra avadanlıq istismara veriləcək, eyni zamanda qurğunu işlədən Çernobıl AES-in personalı təlimatlandırılacaq.

Layihə Avropa Komissiyası tərəfindən maliyyələşdirilən U4.01/10E layihəsinin davamıdır və hazırda başa çatdırılma mərhələsindədir. Layihənin gedişi zamanı bir sıra hazırlıq işləri görülüb: beynəlxalq standartlar təhlil olunub, ən yaxşı praktika müəyyənləşib, bilavasitə Çernobıl AES-də tətbiq ediləcək metodologiya və prosedurlar işlənərək hazırlanıb, habelə yaradılan qurğunun layihələndirilməsi üçün tapşırıqlar və texniki spesifikasiyalar hazırlanıb.

Layihənin reallaşdırılmasında ümumi məqsəd yüksək texnologiyalı qurğularda basdırılmasını tələb edən radioaktiv tullantıların yaranmasını minimuma endirmək yolu ilə bu zərərli mddələrlə təhlükəsiz və səmərə ilə rəftar etməkdir.

«Xanxikivi-1» AES

BELARUS

Reaktor korpusu tikinti meydançasına gətirilib

♦ «Atomenerqomaş» SC-nin müəssisələrində hazırlanmış VVER-1200 reaktorunun korpusu tikilməkdə olan Belarus atom stansiyasının meydançasına gətirilib.

Belarus AES-in birinci bloku üçün reaktor korpusunun hazırlanması ötən ilin sonlarında başa çatdırılıb. VVER-1200 reaktoru korpusunun çəkisi 330 tondan çox, hündürlüyü 12 metr, diametri 4,5 metrdir. Onun təyinat yerinə gətirilməsi üçün daşınma şirkətinin mütəxəssisləri ilə birlikdə nadir multimodal logistik əməliyyat işlənib hazırlanmışdır. Reaktorun korpusu «Atommaş»ın filialı Rostov vilayətinin Volqodonsk şəhərindəki «AEM-Texnologiyaları» SC-dən ixtisaslaşdırılmış avtomobil texnikası vasitəsilə Simlyansk su anbarı körpüsünə gətirilib.

Velikiy Novqoroddan keçən Volxov çayında başa çatan 3500 kilometrlik su yolunu başa vurmaq üçün 25 gün vaxt tələb olunurdu. Burada korpus yenidən avtomobil nəqliyyatına yüklənərək Novqorod-Volxov dəmiryolu stansiyasına gətirilib. Stansiyada üç gün ərzində korpusun dəmiryolu transportnyoruna qaldırılması əməliyyatı həyata keçirilib. Belə əməliyyatlar əvvəllər təbii şəraitdə aparılmamışdı. Korpus transportyorla atom stansiyasının tikildiyi Ostrovets şəhərinə gətirilib.

«Atomenerqomaş» SC reaktor, buxar generatorları, nasos aqreqatları və digər avadanlıqlar da daxil olmaqla nüvə buxar istehsalı qurğularının komplekt istehsalçısı və tədarükçüsüdür. VVER-1200 reaktoru korpusunun hazırlanma müddəti istehsala başlandığı andan daşınmasınadək 840 gün çəkir. Hazırda «Atommaş» zavodunda Belarus AES-in ikinci bloku üçün reaktor korpusu hazırlanır.

Belarus AES Ostrovets şəhərinin (Qrodno vilayəti) 18 kilometrliyində inşa edilir. Birinci enerji blokunu 2018-ci ildə, ikinci enerji blokunu isə 2020-ci ildə istismara vermək planlaşdırılır.

BRAZİLİYA

Külək elektrik stansiyasının tikintisinə 400 milyon dollar

♦ «Enel Green Power» korporasiyası Braziliyanın şimal-şərqindəki Baiya ştatında yeni «Delfina» külək elektrik stansiyasının tikintisinə başlayıb.

Ümumi qoyuluş gücü 180 MVt olan elektrik stansiyasının 2017-ci ilin birinci yarısında istifadəyə veriləcəyi gözlənilir. «Delfina» ildə 800 QVt-s enerji istehsal edə biləcək ki, bu da 390 mindən çox braziliyalı ailəsinin tələbatına uyğun gəlir. Eyni zamanda stansiyanın fəaliyyəti nəticəsində atmosferə 270 min tondan çox karbon qazının buraxılmasının qarşısını almağa imkan veriləcək.

«Enel Green Power» bu külək elektrik stansiyasının tikintisi üçün 400 milyon ABŞ dolları həcmində investisiya qoyur. Bu məbləğ şirkətin cari il üçün biznes-planında nəzərdə tutulub.

Hazırda «Enel Green Power»in Braziliyada ümumi qoyuluş gücü 418 MVt-yə bərabərdir. Bunun da 93 MVt-si hidroenergetikasının, 313 MVt-si külək elektrik stansiyasının, 12 MVt-si isə günəş generasiyasının payına düşür. Bundan əlavə, şirkət ümumi qoyuluş gücü 444 MVt olan bir sıra obyektlərin tikintisini davam etdirir. Belə obyektlər sırasına 254 MVt gücündə «İtuverava» iri günəş elektrik stansiyası da daxildir. «Enel Green Power» həm qoyuluş gücü, həm də layihələrin sayına görə Braziliyanın energetika bazarında liderlik mövqeyindədir. Üstəlik, bu yaxınlarda «Enel Green Power»ə ümumi qoyuluş gücü 40 MVt olan və fəaliyyət göstərməkdə davam edən iki su elektrik stansiyasına nəzarət etmək hüququ verilib.

RUSİYA-HİNDİSTAN

Nüvə reaktorları üçün 303 ton istilik həbi

♦ «Maşınqayırma zavodu» SC («Rosatom»un «TVEL» yanacaq şirkətinə daxildir) Hindistanın ağırsulu nüvə reaktorları (PHWR) üçün yanacaq həbləri hazırlanması üzrə nəzərdə tutulan proqramı yerinə yetirib.

Ötən il Hindistan hökuməti atom enerjisi üzrə departamentinin sifarişi ilə 303 metrik ton həcmində uran məhsulu hazırlanıb və Heydərabaddakı nüvə yanacağı kompleksinə yola salınıb.

Hindistanın atom stansiyaları üçün yanacaq həblərinin tədarükünə dair uzunmüddətli müqavilə 2009-cu ilin fevral ayında «TVEL» SC ilə Hindistan hökumətinin atom enerjisi üzrə departamenti arasında bağlanıb. «Rosatom»un «TVEL» yanacaq şirkəti bu ölkəyə nüvə yanacağı verilməsinə dair uzunmüddətli müqavilə imzalayan ilk şirkətdir. Müqavilə bağlandıqdan sonra nüvə tədarükçüləri qrupu Hindistan Respublikasına uran, reaktor və texnologiyalar tədarükü ilə əlaqədar qoyulan məhdudiyyətləri aradan qaldırıb. Heydərabaddakı zavoda ilk nüvə yanacağı 2009-cu ilin yazında göndərilib. Moskva vilayətinin Elektrostal şəhərində hazırlanan yanacaq həbləri indi Hindistanın nüvə reaktorlarında uğurla tətbiq edilir.

Sözügedən müqavilənin icra müddəti bu il başa çatır. «TVEL» isə yeni uzunmddətli müqavilənin bağlanması üçün hindistanlı partnyorları ilə danışıqlara başlayıb. Danışıqlar zamanı qeyd olunub ki, maşınqayırma zavodu müqavilənin həyata keçirilməsi müddətində xeyli təcrübə toplayıb, səlahiyyət qazanıb və eyni zamanda istehsal xərclərinin xeyli azaldılmasına nail olub. Bu isə icraçıya imkan verir ki, hindistanlı sifarişçiyə daha cəzbedici kommersiya şərtləri irəli sürsün.

ÇİN

2020-ci ilədək enerji istehlakında BEM-in payı 15 faizə çatacaq

♦ Ötən ilin yekunlarına görə Çində günəş elektrik stansiyalarının ümumi gücü 43 QVt, külək elektrik stansiyalarının gücü 120 QVt təşkil edib.

Bərpa olunan enerji mənbələrindən (BEM) istifadə edilməsi sahəsində əməkdaşlıq üzrə Rusiya-Çin işçi qrupunun birinci iclası keçirilib. İşçi qrupuna Rusiya tərəfindən Rusiya Federasiyası energetika nazirinin müavini Vyaçeslav Kravçenko, Çin tərəfindən Çin Xalq Respublikası Dövlət Energetika İdarəsi rəhbərinin müavini Lyu Tsi başçılıq edib.

Çıxışı zamanı Vyaçeslav Kravçenko göstərib ki, son illərdə Rusiyada topdansatış və pərakəndə elektrik enerjisi bazarında bərpa olunan enerji mənbələri əsasında generasiyanı dəstəkləmə tədbirləri həyata keçirilib. Nazir müavininin sözlərinə görə, Rusiya BEM-lərin inkişaf etdirilməsi vəzifələrindən biri zəruri obyektlərin tikintisi üçün texnoloji kompetensiyaların əldə olunmasıdır. Bu məqsədə çatmaq üçün Rusiyada BEM obyektlərinin tikintisinə avadanlıq istehsalını artırmaqla əlaqədar tələblər müəyyən edilərək təsdiqlənib. Vyaçeslav Kravçenko qeyd edib ki, bu sahədə Çin şirkətlərinin təcrübəsi və səlahiyyətləri Rusiyada bərpa olunan enerji bazarının inkişafında müəyyən rol oynaya bilər. O, Uzaq Şərqdə ikitərəfli əməkdaşlığın reallaşdırılması potensialını xüsusi qeyd edib.

«Ölkənin rəhbərliyi Uzaq Şərq regionlarının inkişafı üçün ciddi səy göstərir. İndiyədək bu cür tədbirlər həyata keçirilmirdi», - deyə energetika nzirinin müavini bildirib.

BEM layihələrinin reallaşdırılmasında iştirak edə biləcək xarici investorların siyahısı Çin tərəfinə təqdim olunacaq. Bundan əlavə, cari ilin ikinci yarısında Çində BEM sahəsində əməkdaşlığa dair seminar keçiriləcəyi də planlaşdırılır.

İşçi qrupunun növbəti iclası 2017-ci ildə keçiriləcək.

ABŞ

Yeni külək elektrik stansiyası tikiləcək

♦ İtaliyanın «Enel Green Power» şirkəti Amerika Birləşmiş Ştatlarının Oklahoma ştatında ümumi qoyuluş gücü 108 MVt olan «Drift Sand» külək elektrik stansiyasının tikintisinə başlayıb.

Stansiyanın inşası və istifadəyə verilməsi 2016-cı ilin sonu üçün nəzərdə tutulub. «Drift Sand» ildə 480 QVt enerji istehsal edə biləcək ki, bu da 39 mindən çox amerikalı ailəsinin tələbatına ekvivalentdir.

«Daha bir elektrik stansiyasının tikintisinə başlamaqla şirkətimizin ABŞ-da qoyduğu investisiyanın həcmi də genişlənməkdə davam edir, - deyə «Enel Green Power»in baş direktoru Françesko Venturini bəyan edib. – Gələcəkdə iş həcminin artması zəmininde «Enel Green Power» Amerikanın bərpa olunan enerji bazarında aparıcı oyunçuya çevrilmək imkanına malik ola biləcək. Biz burada innovasiyalardan istifadə olunmasına, istehsalata texnoloji rəngarəngliyin tətbiqinə və strateji cəhətdən mühüm əməkdaşlığın inkişafına yönəldilən biznes-strategiyamızın həyata keçirilməsində fəal iştirak edəcəyik».

«Draft Sand» külək elektrik stansiyasının tikilməsi üçün zəruri olan investisiyanın həcmi təxminən 108 milyon ABŞ dolları təşkil edəcək.

Külək elektrik stansiyası Oklahoma ştatının Qreydi dairəsində yerləşəcək. «Enel Green Power» şirkəti burada ümumi qoyuluş gücü 1 QVt-yə yaxın olan altı stansiyanı idarə edir.

Materialı hazırladılar: V.Məmmədov, Ə.Baxşəliyev

MİLLİ-MƏNƏVİ SƏRVƏTLƏRİMİZ

Çərşənbələr - Novruzun müjdəçiləri

♦ Fevral ayının 23-də xalqımız Novruz bayramının əsas atributlarından olan çərşənbələrin ilkini - su çərşənbəsini təntənə ilə bayram etdi. Bununla da, Azərbaycan xalqının ən qədim, əziz bayramı olan Novruzun ilk müjdəsi öz mübarək qədəmlərini yurdumuza qoydu.

Bu müqəddəs bayram, onun zəngin atribut və mərasimləri, inanc və adət-ənənələri nəsildən-nəslə keçərək əsrləri adlamış, günümüzə qədər gəlib çatmışdır. Çağdaş dövrümüzdə də böyük sevinc və məhəbbətlə icra edilən bu el bayramının, şənlik mərasimlərinin söykəndiyi qaynaqların tarixi isə çox qədimlərə gedib çıxır.

Əsrlər boyu xalqımız tərəfindən böyük coşqu ilə qarşılanan Novruz bayramı və onun mərasimləri mövsüm dəyişməsi, yəni qışın yola salınması, yazın təntənə ilə qarşılanması bayramıdır. Qədim zamanlarda insanlar Novruzun gəlişinə, əmək mövsümünün başlamasına çox sevinmiş, həyata, təbiətə, torpağa, zəhmətə olan sonsuz məhəbbətlərini müxtəlif nəğmələr vasitəsilə izhar etmişlər. Qədim əcdadlarımız hələ Novruza doxsan gün qalmış, yəni qış fəsli girəndən çillə şənlikləri keçirər, müxtəlif nəğmələr oxuyarmışlar. Azərbaycanın bəzi bölgələrində bu nümunələr “Çillə”, “Çilləkəsdi” və yaxud “Çillədən çıxma” nəğmələri də adlanır.

Dörd müqəddəs ünsür

İbtidai etiqadlara görə, qış fəsli çillələrə bölünərdi. Qışın girməsi ilə başlanan Böyük çillə qırx gün davam edərdi. Sonra Kiçik çillə girər və “qışın oğlan çağı” iyirmi gün çəkərdi. Qış fəslinin son ayı isə Boz aydır ki, bu da hər biri yeddi gündən ibarət olan dörd kiçik çilləni əhatə edir. Boz ayın yeddi günlük dörd çilləyə bölünməsi təbiətin dörd əsas ünsürdən - hava, torpaq, su və oddan ibarət olması etiqadına əsaslanır.

Qədim inanclara görə, Boz ayın hər həftəsində bu ünsürlərdən biri canlanır və yaşamağa başlayır. Dörd ünsürün hamısının dirilməsi isə təbiətin oyanmasına - qış qurtarmasına və yazın başlanmasına səbəb olur. Hələ qədim zamanlardan bu ünsürlərdən hər birinin adı ilə bağlı olan çərşənbələr - Su çərşənbəsi, Od çərşənbəsi, Yel çərşənbəsi və Torpaq çərşənbəsi xüsusi təntənə ilə qeyd edilərmiş. Novruz bayramına bir ay qalmış qeyd olunan bu çərşənbələrin el arasında fərqli adlandırılması da olmuşdur. Məsələn, dörd ilaxır çərşənbədən birincisinə “birinci çərşənbə”, “yalançı çərşənbə”, “əzəl çərşənbə”, “su çərşənbəsi”, ikincisinə “ikinci çərşənbə”, “xəbərçi çərşənbə”, “üskü çərşənbə”, “od çərşənbəsi”, üçüncüsünə “üçüncü çərşənbə”, “yel çərşənbəsi”, dördüncüsünə “axır çərşənbə”, “ilaxır çərşənbə”, “torpaq çərşənbəsi” və s. deyilir.

Bu çərşənbələrin hər biri Novruz bayramının əvəzolunmaz atributlarındandır. Çərşənbələrin hərəsi təbiətin bir ünsürü ilə əlaqələndirilmiş və bununla da insanların təsəvvürlərində ilin axır çərşənbələri şəklində formalaşmışdır. Novruzqabağı nəğmələrin müəyyən bir hissəsi də çərşənbələrlə bağlı ayin və mərasim nəğmələrindən ibarətdir.

Su çərşənbəsi

Novruzun ilk çərşənbəsi – Su çərşənbəsidir. Suya tapınma inamı ilə bağlı olan bu çərşənbəyə xalq arasında “əvvəl çərşənbə”, “gözəl çərşənbə”, “sular Novruzu” və “gül çərşənbə” də deyilir.

Su bütün mifik mətnlərdə həyat verən, dirildən, xoşbəxtlik gətirən müqəddəs bir inam obyekti kimi çıxış edir. İlk çərşənbədə də suyun bu müqəddəs mahiyyəti ifadə olunur. Həmin gün icra edilən su üstündən atlanmaq, arzularını, dileklərini suya danışmaq, sübh tezdən evə bulaq suyu gətirmək və s. ayinlər də suyun müqəddəs mahiyyəti ilə bağlıdır. İnanclara görə, sübh tezdən bulaqdan götürülən su min bir dərdin dərmanıdır. Su çərşənbəsi ilə bağlı çoxlu su falları da mövcuddur.

İlk çərşənbədən etibarən bayrama hazırlıq işləri başlayır. Elə həmin vaxtdan qonşuya axşamcağı ələk, maya, od verilməzmiş. Zərurət olduğu halda diləyə gələnin başından örpəyini götürüb sonra verərmişlər.

Od çərşənbəsi

Novruzqabağı qeyd edilən çərşənbələrdən ikincisi Od çərşənbəsidir ki, xalq arasında buna “üskü çərşənbə”, “üskü gecəsi”, “ikinci çərşənbə” və yaxud “addı çərşənbə” də deyilir. Od çərşənbəsində xonçalar bəzənər, hər ailə üzvünün adına bir ədəd şam yandırılar, həyətlərdə tonqallar qalanar.

Od çərşənbəsi insanın yaradılış prosesinin ikinci mərhələsinin, od komponenti ilə bağlı mərhələnin mifik təzahürü kimi çıxış edir. Bayram ərəfəsində odla bağlı ritual və mərasimlərin aktiv mövcudluğu daha çox odun sakral mahiyyəti ilə əlaqələndirilir. Hələ qədim türk mifologiyasında odla bağlı müxtəlif motivlər mövcud olmuşdur ki, Novruzdakı odla bağlı rituallar da bu görüşlərlə bağlıdır. Bayram ərəfəsində keçirilən əski rituallardan olan "Qodu xan" oyunu, onunla bağlı mətnlər bu kultun sırf türk mifologiyasından qaynaqlandığını sübut edir.

Çox qədim zamanlardan od müqəddəs hesab edilirdi. Buna görə də yeni anadan olmuş uşağı odun başına dolandırmaqla pak edər, ancaq bundan sonra ananın qucağına verərdilər. Bu yolla paklaşmamış uşaq murdar hesab edilər, buna görə də ana onu rahatlıqla qucağına ala bilməzmiş.

Yel çərşənbəsi

İlaxır çərşənbələrdən üçüncüsü Yel çərşənbəsi adlanır ki, xalq arasında ona “Külək oyadan çərşənbə”, “Küləkli çərşənbə” və ya “Yelli çərşənbə” də deyilir. Bu zaman təbiət bir az da oyanır, yel azacıq oyanmış torpağı, təzəcə açmış çiçəkləri tərpədir, tumurcuqlanan ağacların budaqlarını yellədir.

Yel çərşənbəsi yaranış prosesinin üçüncü mərhələsini əks etdirir. Əgər su və torpaq insan yaradılışının materialını, maddi əsasını təşkil edirsə, od və yel bu materialın yaradılması prosesinə təkan verən vasitələr kimi çıxış edir. Yaradılış mifologiyasında torpaqla suya daha çox statiklik, donuqluq, yellə oda isə dinamiklik, hərəkət xasdır. Əski türk mifoloji mətnlərində bu mifin məntiqindən irəli gələrək yel daha çox antropomorflaşdırılmış, canlı, çevik bir varlıq kimi təsəvvür edilmişdir. Bu təsəvvürlər daha çox "yel baba" mifik obrazında konsentrasiya olunmuşdur. Bəzi hallarda mənfi semantemdə də xatırlanan yel baba əksərən müsbət obrazda özünü göstərir.

Qədim inanclarda deyilir ki, Yel çərşənbəsi gecəsi söyüd ağacının altına keçib niyyət elə və yel babanı çağır. Əgər yel baba sənin səsini eşidib əssə və söyüdün budaqları ağaca toxunsa diləyin yerinə yetər.

Torpaq çərşənbəsi

Dördüncü çərşənbə Torpaq çərşənbəsi adlanır. Torpaq insan yaradılışının əsas maddi əsası olmaq etibarilə bu prosesdə son dərəcə əhəmiyyətli mövqeyə malikdir. Torpaq müqəddəsliyinin türk mifoloji görüşləri ilə bərabər, etnik-əxlaqi dəyərlər sistemində yurd, Vətən, el-oba anlayışı ilə yanaşı, yaradılışın maddi əsası olmasından irəli gələrək sakral mifoloji semantikaya da malikdir. Yazda torpağın oyanmasının mifik kökləri etibarilə dirilmə, canlanma anlayışı ilə əlaqədardır. Bu isə ilk növbədə insanın yaradılış mifindən qaynaqlanır.

Həmin çərşənbə axşamında insanlar od üstündən yeddi dəfə o yan-bu yana atlanar, bununla da köhnə ilin azar-bezarını, dərdbəlasını özlərindən qovub təzə ilə sağlam canla qədəm qoyacaqlarına, gələcək azar-bezardan qorunacaqlarına inanarmışlar. “Kosa-Kosa” oyunu da ilin axır çərşənbəsi günü icra edilərmiş. Qışın tez çıxması üçün çərşənbələr boyu hazırlıq işləri görən xalq, nəhayət, ilaxır çərşənbədə bir yerə toplaşar, qışı elliklə yola salar, yazın ilk gününü böyük sevinclə bayram edər.

...Qeyd etdik ki, bu il ilk çərşənbə - Su çərşənbəsi fevralın 23-də bayram edildi. Azərbaycanda baharın müjdəçisi olan digər çərşənbələrdən Od çərşənbəsi mart ayının 1-də, Yel çərşənbəsi martın 8-də, ilaxır olan Torpaq çərşənbəsi isə mart ayının 15-i təntənə ilə qeyd ediləcək.

Sadıq QARAYEV

Ölkəmizdə növbəti gimnastika bayramı uğurla başa çatdı

♦ İdman gimnastikası üzrə Dünya Kuboku yarışlarına çox ciddi hazırlaşmışdıq. Təşkilat Komitəsi əlindən gələni etdi və turnir yüksək səviyyədə keçirildi.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov söyləyib.

O, ölkəmizdə ilk dəfə keçirilən İdman gimnastikası üzrə Dünya Kuboku yarışlarının yüksək səviyyədə təşkilindən qonaqların da məmnun qaldıqlarını bildirib: “Biz də çox sevinirik ki, həm yarış yüksək səviyyədə keçirildi, həm də idmançılarımız mükafatçılar sırasında yer aldı. İdmançımız Marina Nekrasova da bürünc medal qazanması ilə bizi sevindirdi. Federasiya rəhbərliyinə öz təşəkkürümü bildirirəm ki, yarışın uğurlu təşkili üçün hər bir şərait yaratdı. Azarkeşlərin dəstəyini isə xüsusi vurğulamaq istərdim.

Altay Həsənov deyib: “Çox sevinirik ki, Dünya Kuboku yarışlarında Azərbaycanın himni səsləndirildi. Çünki bu möhtəşəm arenaya bizim himn yaraşır. Bu yarış dünya çempionatı səviyyəsində təşkil olundu. Nəticədən razıyıq. İnanıram ki, atletlərimiz “Rio-2016” Yay Olimpiya Oyunlarında da uğurla çıxış edib, bizi sevindirəcəklər”.

Qeyd edək ki, Milli Gimnastika Arenasında üç gün davam edən Dünya Kuboku yarışlarında Azərbaycan atletləri 4 medal qazanıblar.

MƏDƏNİYYƏT

“Xocalıda qırmızı mələk”

Xocalıda girov götürülmüş şəxslərin acı taleyindən bəhs edən tamaşa göstərilib

♦ Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüskarı olduğu “Xocalıya ədalət” beynəlxalq kampaniyasına dəstək olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə səhnələşdirilən “Xocalıda qırmızı mələk” adlı tamaşanın fevralın 22-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında premyerası olub.

AZƏRTAC xəbər verir ki, tamaşa İtaliyanın “Associazione Arci Bellezza” təşkilatı tərəfindən hazırlanıb.

İtaliyanın tanınmış aktyorlarının repertuarında təqdim olunan premyerada hökumət rəsmiləri, Milli Məclisin deputatları, ölkəmizdə fəaliyyət göstərən bir sıra diplomatik korpusun nümayəndələri iştirak ediblər.

Əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının katibliyinin icraçı direktoru Fərasət Qurbanov çıxış edərək Xocalı faciəsi haqqında reallıqları bir daha qonaqların diqqətinə çatdırıb.

Bildirilib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri, Xankəndidə yerləşən keçmiş sovet ordusunun 366-cı alayının köməkliyi ilə Xocalıda azərbaycanlılara qarşı etnik təmizlənmə aparıb. Soyqırımı nəticəsində 613 nəfər azərbaycanlı, həmçinin 106 qadın, 83 uşaq qətlə yetirilib. Vurğulanıb ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi Ermənistan tərəfindən işğal olunub, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Qeyd olunub ki, Xocalı soyqırımının ildönümü hər il Azərbaycanda və dünyanın bir çox ölkələrində dərin hüznlə qeyd olunur, müxtəlif aksiyalar və tədbirlər təşkil edilir. Soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbəri olduğu “Xocalıya ədalət” beynəlxalq kampaniyasının böyük rolu və xidmətləri vardır. Məhz, bu kampaniya çərçivəsində sistemli şəkildə aparılan işin nəticəsi olaraq bir çox ölkələr, o cümlədən bir sıra beynəlxalq təşkilatlar Xocalı soyqırımını tanıyıblar.

Vurğulanıb ki, bu təbliğat kompaniyası hazırda da davam etdirilir.

Sonra tamaşa nümayiş olunub.

“Xocalıda qırmızı mələk” tamaşası “Cəhənnəmdə böyük çığırtı” kitabının motivləri əsasında hazırlanıb.

Tamaşanın ssenari müəllifi Səbuhi Məmmədli, quruluşçu rejissoru Nihad İsadır. Azərbaycan və İtaliya musiqi nümunələrindən istifadə edilən səhnə əsərində Xocalıda girov götürülmüş şəxslərin acı taleyindən bəhs olunur. Buradakı “Qırmızı mələk” Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsində çalışmış, azərbaycanlı əsirlərin “qoruyucu mələy”i adını almış isveçrəli Pyer Reyçel nəzərdə tutulur.

Maraqla qarşılanan tamaşada rol alan italiyalı aktyorlara diplomlar təqdim edilib.

Qeyd edək ki, “Xocalıda qırmızı mələk” tamaşası keçən ilin fevral ayında hazırlanıb və ilk dəfə İtaliyanın Milan şəhərində nümayiş olunub.

● PAYTAXT MƏNZƏRƏLƏRİ: İÇƏRİŞƏHƏR

İQTİSADİ XƏBƏRLƏR

Sürücülər cərimə balları barədə məlumatları internet vasitəsilə öyrənə bilərlər

♦ Azərbaycanda hər bir sürücü yol hərəkəti qaydalarının pozulması ilə əlaqədar tətbiq edilən cərimə balları barədə məlumatları internet vasitəsilə öyrənə bilər.

Daxili İşlər Nazirliyindən Trend-ə verilən məlumata görə, nazirliyin internet saytında (www.mia.gov.az) yerləşdirilmiş cərimə balları bölməsinə (http://mia.gov.az/?/az/driverlicense/) daxil olmaqla, sürücülər bu barədə məlumat əldə edə bilərlər.

Hər bir sürücü saytın bu bölməsində sürücülük vəsiqəsinin nömrəsi, doğum və vəsiqənin son istifadə tarixini yazmaqla, cərimə balı barədə məlumatları öyrənə bilər.

Bakı-Yevlax yolunun Ağsu–Yevlax hissəsi iyun-iyul aylarında istifadəyə veriləcək

♦ “Azəryolservis” ASC tərəfindən 2013-2016-cı illərdə Bakı-Şamaxı-Muğanlı-Ağsu-Yevlax yolunun ikinci dərəcəli Ağsu –Yevlax hissəsinin (112 kilometr) tikintisi başa çatmaq üzrədir.

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə müsahibəsində “Azəryolservis” ASC-nin sədri Saleh Məmmədov bildirib. Onun sözlərinə görə, həmin yolun açılışı cari ilin iyun-iyul aylarında nəzərdə tutulub.

S.Məmmədov, həmçinin əlavə edib ki, yaxın günlərdə Azərbaycan Magistral Avtomobil yolu layihəsinin 3 mərhələsi çərçivəsində Bakı-Şamaxı yolunun 15-107-ci kilometr hissəsinin 2 zolaqdan 4 zolağa keçirilməsi məqsədilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı ilə 140 milyon ABŞ dolları həcmində kredit sazişi imzalanacaq.

2018-ci ilin may ayında yolun istismara verilməsi planlaşdırılıb.

“Expressbank”ın yeni Elmlər filialı açıldı

♦ “Expressbank”ın “Elmlər Akademiyası” metro stansiyasının yaxınlığında yeni Elmlər filialı fəaliyyətə başlayıb.

Bankdan AZƏRTAC-a bildirilib ki, yeni filial Bakı Dövlət Universiteti ilə üzbəüz, F.Ağayev küçəsi, 5 ünvanında yerləşir.

““Expressbank” filial şəbəkəsinin optimallaşdırılması layihəsi çərçivəsində filialını müştərilərin istifadəsinə verdi. Yeni filial əhalinin sıx yaşadığı ərazidə, xüsusən də gediş-gəlişin asan olması məqsədilə metro stansiyasının yaxınlığında fəaliyyətə başlayıb. Bankın Elmlər filialı müştərilərə ən yüksək səviyyədə xidmət göstərmək üçün bütün zəruri şəraitə və imkanlara malikdir”, - deyə “Expressbank”ın biznesin inkişafı departamentinin direktoru Mehriban Ocaqquliyeva bildirib.

Ətraflı məlumatı 132 məlumat mərkəzindən, www.expressbank.az saytından və ya bankın rəsmi facebook səhifəsindən *www.facebook.com/Expressbank* əldə etmək olar.

MARAQLIDIR

Xərçəngə qarşı ən səmərəli vasitə – yovşan

♦ ABŞ-ın Kaliforniya Universitetinin onkoloqları möhtəşəm kəşf ediblər. AZƏRTAC “İnforminq” saytına istinadla xəbər verir ki, onlar orqanizmdəki xərçəng hüceyrələrinin 98 faizini 16 saat ərzində məhv edən bitki tapıblar. Maraqlı budur ki, xərçəngə qarşı ən səmərəli mübarizə vasitəsi hamımızın yaxşı tanıdığı “birillik yovşan” və ya “Artemisia Annua” deyilən adi alaq otudur.

Mütəxəssislər bildirirlər ki, 16 saat ərzində xərçəng hüceyrələrinin 98 faizini məhv etməyə qadir olan yovşan təkbaşına bədxassəli şişlərin yalnız üçdə bir hissəsini məhv edir, amma dəmir preparatları ilə birlikdə orqanizmi tamamilə bu xəstəlikdən təmizləyir. Ekspertlər yovşanın şəfalı xassələrini ağciyər xərçənginə tutulan könüllülər üzərində sınaqdan keçiriblər. Nəticə onları heyrətləndirib: eksperimentin bütün iştirakçıları sağlamlıqlarını mürəkkəb terapiyadan keçmədən bərpa ediblər.

Alimlər vurğulayırlar ki, “Artemisia Annua” insanlar üçün tamamilə təhlükəsizdir. Bu alaq otu seçim üsulu ilə işləyir, sağlam orqanlara və toxumalara toxunmadan bilavasitə bədxassəli şişləri məhv edir. Buna görə də yovşanı xərçəng şişinin inkişafının istənilən mərhələsində heç bir fəsad riski olmadan qəbul etmək olar.

Alimlərin yeni kəşfindən sonra dünyanın ən iri əczaçılıq şirkətlərindən biri yovşanın əsas komponenti olan artemizininin istehsalını qat-qat artırmağı vəd edib. Bundan sonra əczaçılar hər il təqribən xərçəngə qarşı 60 ton səmərəli dərman istehsal edəcəklər. Bu da onkoloji xəstəliklərin müalicəsində böyük sıçrayış etməyə və milyonlarla insanı ölümdən xilas etməyə imkan verəcək.

Avtomobil sürməyin ömür müddətinə təsiri

♦ Kolumbiya Səhiyyə Universitetinin əməkdaşları bildirirlər ki, avtomobil idarə etmək ömür müddətinin artmasına kömək edir.

AZƏRTAC “İnforming” saytına istinadla xəbər verir ki, onlar yaşı 55-dən yuxarı olan insanların sağlamlıq durumunu öyrənəndən sonra bu qənaətə gəliblər. Qeyd edək ki, bütün könüllülərin yetərincə böyük sürücülük stajı olub.

Məlum olub ki, vaxtının çoxunu sükan arxasında keçirən insanlar yaddaş problemindən az şikayətlənirlər. Bu, onlarda koqnitiv funksiyaların daha yaxşı inkişaf etməsi ilə bağlıdır. Bundan əlavə, sükan arxasında oturmaq depressiya riskini təqribən 5 dəfə azaldır.

Buna görə də tədqiqat müəllifləri insanlara tez-tez sükan arxasına keçməyi məsləhət görürlər ki, hətta ahıl yaşlarında da yaxşı yaddaşa malik olsunlar. Üstəlik, avtomobil sürmək sağlamlıqla bağlı başqa problemlərdən də yaxa qurtarmağa kömək edir.

TƏHSİL

TQDK bu il keçiriləcək imtahanların və tədbirlərin vaxtını açıqlayıb

♦ Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) bu il keçiriləcək qəbul imtahanlarının və tədbirlərin vaxtını açıqlayıb.

TQDK-dan AZƏRTAC-a bildiriblər ki, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə ərizə qəbulu I-IV qruplar üzrə aprelin 1-dən 28-dək, V qrup üzrə mayın 3-dən 17-dək aparılacaq. Əvvəlki illərin məzunları üçün qəbul imtahanı II və III qruplar üzrə mayın 15-də, I və IV qruplar üzrə mayın 22-də, V qrup üzrə iyulun 5-də keçiriləcək. Cari ilin məzunları I və IV qruplar üzrə iyulun 15-də, II və III qruplar üzrə iyulun 23-də imtahan verəcəklər. Rus bölməsinin abituriyentləri üçün Azərbaycan dili fənnindən birinci imtahan mayın 1-də, ikinci imtahan (birinci imtahanda “qeyri-məqbul” alan və ya iştirak etməyən abituriyentlər üçün) iyunun 12-də keçiriləcək.

Ətraflı məlumatı TQDK-nın rəsmi internet saytından əldə etmək olar.

Birinci sinfə şagird qəbulu elektron sistem vasitəsilə həyata keçiriləcək

♦ Təhsil naziri Mikayıl Cabbarov “2016-2017-ci dərs ili üçün birinci sinfə şagird qəbulunun elektron sistem vasitəsilə həyata keçirilməsi barədə” əmr imzalayıb.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, əmrə əsasən, Bakı şəhərinin ümumtəhsil məktəblərində, nazirliyin birbaşa tabeliyindəki lisey və gimnaziyalarda 2016-2017-ci dərs ili üçün birinci sinfə şagird qəbulunun Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən ərizələrin online qeydiyyatı aparılmaqla, elektron sistem vasitəsilə həyata keçirilməsi qərara alınıb.

“Azərenerji” ASC-nin rəhbərliyi və kollektivi Enerjinin İstehsalı İdarəsinin Yanacaq xidmətinin rəis müavini, YAP ərazi ilk təşkilatının sədri **Ramazan Mehdiyevə,**

ANASININ

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mərkəzi Dispetçer İdarəsinin kollektivi iş yoldaşları **Sadir Tağıyevə,**

QARDAŞININ

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Azərenerji” ASC-nin rəhbərliyi və kollektivi Mərkəzi Dispetçer İdarəsinin rəis müavini - Baş dispetçer **Sadir Tağıyevə**,

QARDAŞININ

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Enerjinin İstehsalı İdarəsinin kollektivi iş yoldaşları **Ramazan Mehdiyevə,**

ANASININ

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ALLAH RƏHMƏT ELƏSİN.

Təsisçi: **“Azərenerji” ASC**
Naşir: **“Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu” MMC**

Baş redaktor:
Elşən ƏLİYEV

Redaksiyanın ünvanı: AZ 1012. Bakı şəhəri, Həsən bəy Zərdabi prospekti, 94.
Telefonlar: (012) 430-01-20; ***daxili:*** baş redaktor - (075) 216, şöbələr - (075) 214; (075) 215. ***E-mail:*** **azerbaycan-ishiqlari@box.az**

“Azərbaycan işıqları” qəzetinin kompüterlərində yığılıb səhifələnir, **“CBS polygraphic production”** mətbəəsində çap olunur. Tiraj: 1000

Çapa imzalanıb:
26 fevral 2016-cı il, saat 18.30.
Məsul növbətçi: **S.QARAYEV**